**UOT 327**

***Zümrüd Məlikova,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***
***Bakı Slavyan Universitetinin dosenti***
**zumrud.melik@gmail.com**
***ORCID iD: 0009-0001-1282-888X***
**https://doi.org/10.59849/2709-5096.2023.1.77**

# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİNİN NƏZƏRİ ƏSASLARI

***Annotasiya***

*Məqalədə müasir dövrdə Türkiyə Cumhuriyyətinin xarici siyasətinin nəzəri əsasları araşdırılıb. 2002-ci ildə iqtidara gələn Ədalət və İnkişaf Partiyasının xarici siyasəti özündən əvvəlki hökumətlərin xarici siyasət kursundan fərqləndi. Dünyada baş verən siyasi proseslərin və yeni dünya düzəninin formalaşması konteksində Türkiyə soyuq müharibə illərindəki özünütəcrid siyasətindən imtina edib keçmiş Osmanlı imperiyasının təsir dairəsində olduğu bölgələrdə aktiv siyasət yürütməyə başladı. Balkanlar, Yaxın Şərq və Cənubi Qafqazda geosiyasi maraqlarını təmin etmək üçün yaranan imkanlardan maksimum istifadə etməyə çalışdı. Türkiyə xarici siyasətini neoosmanizm, neopantürkizm ideyaları əsasında formalaşdığı sezilməyə başladı. Bunun üçün Türkiyə beynəlxalq münasibətlərdə istifadə olunan "yumşaq güc"dən istifadə etdi və bu istiqamətdə bir sıra uğurlar qazandı. Lakin "Ərəb baharı"ından sonra Yaxın Şərqdə baş verən proseslərin təsiri altında regionda yeni təhlükəsizlik təhdidlərinin meydana çıxması və Türkiyənin təhlükəsizliyi üçün ciddi problemlərin yaranması xarici siyasətdə "yumşaq güc"dən "sərt güc"ə keçidi şərtləndirdi. Müasir dövrdə Türkiyə daha çox "realpolitik"ə əsaslanan xarici siyasət kursu həyata keçirir.*

***Açar sözlər:*** *Türkiyə, neoosmanizm, çoxvektorlu xarici siyasət, yumşaq güc, sərt güc, realpolitik.*

**Zumrud Melikova**

# THEORETICAL FOUNDATIONS OF THE FOREIGN POLICY OF THE REPUBLIC OF TÜRKİYE

***Annotation***

*The article deals with the theoretical foundations of the foreign policy of the Republic of Türkiye in the modern era. The foreign policy of the Justice and Development Party (JDP), which came to power in 2002, differed from that of previous governments. In the context of the political processes taking place in the world and the formation of a new world order, Türkiye abandoned the policy of self-isolation that it pursued during the Cold War and initiated to pursue an active policy in the regions that once were in the sphere of influence of the former Ottoman Empire. It tried to use the most of the opportunities to ensure his geopolitical interests in the Balkans, the Middle East and the South Caucasus. It began to be felt that Türkiye 's foreign policy was formed on the basis of the ideas of neo-Ottomanism and neo-Pan-Turkism. To do this, Türkiye used the "soft power" used in international relations, and has achieved a number of successes in this direction. However, under the influence of the processes taking place in the Middle East after the "Arab Spring", the emergence of new security threats in the region and serious problems for Türkiye 's security caused a transition from "soft power" to "hard power" in foreign policy. Nowadays, Türkiye is pursuing a foreign policy course based more on realpolitik.*

***Keywords:*** *Turkiye, neo-Ottomanism, multi-vector foreign policy, soft power, hard power, realpolitik*

## *Giriş*

Türkiyə Cumhuriyyəti soyuq müharibə illərində özünütəcrid siyasəti yeridib tarixən təsir dairəsində olmuş regionlarda (Yaxın Şərq, Balkanlar, Cənubi Qafqaz) baş vermiş proseslərdə fəal

iştirak etməkdən çəkinmişdir. O dövrün reallıqları və digər amillərin təsiri altında Türkiyə bu cür xarici siyasət kursunu izləsə də, XX əsrin sonu XXI əsrin əvvəllərində formalaşmış yeni geosiyasi və geostrateji şəraitdə bu dövlət xarici siyasətində əhəmiyyətli dəyişikliklər etdi. 2002-ci ildə ƏİP-nin (Ədalət və İnkişaf Partiyası) hakimiyyətə gəlməsi ilə Türkiyə çoxvektorlu və aktiv xarici siyasəti kursunu götürərək əvvəllər bitərəf qaldığı, lakin onun üçün böyük geosiyasi və geoiqtisadi əhəmiyyət kəsb edən regionlara daha çox diqqət ayırmağa başladı. Türkiyənin geostrateji mövqeyi, bu bölgələrdəki tarixi kökləri, dini və mədəni bağları ona qeyri-regional güclərdən daha çox imkanlar yaratdı. Əvvəllər qərb meyilli olub Qərb institutlarına üzvlüyə yönəlik siyasi kurs izləyən Türkiyənin təcridçilik xarici siyasətinin nəzəri əsasları soyuq müharibədən sonrakı dövrdə tədricən dəyişdi. Ə.Davudoğlu deyirdi:

"*Bizim tarixi bağlılığımız olan və cavabdehlik daşıdığımız, mənim "yaxın quru hövzə" adlandırdığım bölgələrə (Balkanlar, Qafqaz və Yaxın Şərq) arxa çevirmək, dəyişiklikləri təqib etməmək kimi bir lüksümüz yoxdur. Bunu bəlkə 50 il öncə qismən edə bilərdik, amma hal-hazırki dünya nizamında bu bölgələrlə maraqlanacayıq*"[3,134].

Türkiyədə ƏİP iqtidara gəldikdə xarici siyasətdə neosmanizm konsepsiyasını rəhbər tutmuş və əvvəllər Osmanlı imperiyasının tərkibində olan bölgələrdə nüfuz dairəsinin artırılmasına əsaslanan siyasət izləməyə başlamışdır. Bu siyasətin əsas aləti isə "yumşaq güc" oldu. Lakin Türkiyənin geosiyasi mənafeləri olan regionlarda, xüsusən Yaxın Şərqdə (Suriyada vətəndaş müharibəsinin başlanması fonunda) yaranan yeni geosiyasi reallıqlar və ölkə daxilində baş verən proseslər Türkiyənin əvvəlki "yumşaq güc" siyasətindən imtina edib "sərt güc"ə keçidini şərtləndirmiş oldu. Müasir şəraitdə Türkiyə artıq "neoosmanizm" siyasətindən imtina edib daha çox "realpolitik" siyasəti yürüdür.

***Ədalət və İnkişaf Partiyasının iqtidarı dövründə Türkiyə xarici siyasətinin proaktivliyi***

Türkiyə Cumhuriyyəti Ədalət və İnkişaf partiyasının (ƏİP) iqtidarı dövründə əvvəlki administrasiyalardan fərqli xarici siyasət yürüdərək yerləşdiyi bölgə ilə yanaşı, tarixi, mədəni və sivilizasiya baxımından bağlı olduğu bölgələrdə dövlət maraqlarını təmin etmək kursunu götürdü. 1990-cı illərdə Türkiyə xarici siyasətini passiv, daha çox mövcud statusunu qorunub saxlanılması istiqamətində yeridirdisə, 2000-ci illərdə regional proseslərə qoşulan, lazım gəldikdə müdaxilə edib öz mövqeyini ortaya qoyan bir siyasi xətt izləməyə başladı. ƏİP-in siyasi ideologiyasının əsasını mühafizəkar demokratiya, iqtisadi liberalizm, sosial mühafizəkarlığın ideyaları təşkil edirdi. Bir sıra analitiklər müasir Türkiyə xarici siyasətinin əsas ideoloji bazasının islamçılıq, neoosmanizm və neopantürkizm ideyaları əsasında formalaşdığını bildirirlər. Bu fikirlər əsasən ƏİP iqtidarı dövrünə aid edilir. Mühafizəkar demokratiya islam demokratiyasını təsvir etmək üçün ƏİP tərəfindən işlədilən termindir. ƏİP neoliberal iqtisadiyyata və hökümətdə dünyəviliyə, layiqliyə əsaslanır. Bazar iqtisadiyyatlı inkişaf, Aİ-yə üzvlük kimi qərb dəyərlərinə əsaslanan mühafizəkar partiya kimi siyasi meydana çıxan ƏİP iqtidarının ilk illərində qərbyönlü xarici siyasət yeritdi və liberal bazar iqtisadiyyatının inkişaf etdirilməsinə çalışdı. Türkiyə ƏİP hakimiyyəti dövründə içinə qapalı bir ölkə mövqeyindən xarici açılan, geosiyasi maraqlarını təmin edən regional dövlətə çevrildi.

Yerləşdiyi regionda meydana çıxan yeni təhdidlər və mövcud ziddiyyətlər Türkiyədən daha fəal xarici siyasət yürütməyi tələb edirdi. "Yumşaq güc" mexanizminin fəal tətbiqinə əsaslanan bu xarici siyasət kursunun əsas aspektlərindən biri də qonşu dövlətlərlə münasibətləri yaxşılaşdırmağı özündə ehtiva edən "qonşularla sıfır problem" siyasəti idi. Məlumdur ki, Türkiyənin qonşu dövlətlərlə bir sıra problemləri vardı və soyuq müharibə illərində onları həll etmək mümkün olmadı. Postsoyuq müharibə dövründə qonşuların bir qismi ilə illərlə davam edən problemləri həll edə bilsə də, Ermənistan və Yunanıstan kimi qonşu ölkələrlə gərgin münasibətlərə daha kəskin notlar əlavə olundu. Suriyada Bəşər Əsəd rejimi ilə ƏİP hököməti arasında gərginliyin yaranması, eləcə də Suriyada vətəndaş müharibəsinin başlanması və Türkiyənin cənub sərhədlərində terror təşkilatlarının aktivləşməsi və yeni terror təşkilatlarının meydana çıxması onsuz da gərgin olan Yaxın Şərq regionunda Türkiyənin aktiv siyasətini şərtləndirdi. Cənub sərhədlərinin, anklav

ərazilərin müdafiəsi və milli təhlükəsizliyin təmini baxımından Türkiyə BMT nizamnaməsinin 51-ci maddəsinə əsasən Suriya və İraqda antiterror əməliyyatları keçirməyə məcbur oldu. Beləliklə, Türkiyə regionda formalaşan yeni geosiyasi duruma uyğun davranış nümayiş etdirib əvvəllər təsir dairəsi olduğu Yaxın Şərqdə mövqelərini möhkəmləndirməyə yönəlmiş proaktiv xarici siyasət yeridərək regional nüfuzunu artırdı.

Türkiyə ƏİP iqtidarının ilkin mərhələsində təməli hələ Turqut Özal və Süleyman Dəmirəl dövründə atılmış "yumşaq güc" siyasətini keçmiş Osmanlı təsir dairəsi altında olan regionlarda uğurla həyata keçirməyə başladı. Keçmiş Osmanlı imperiyasının təsirində olan regionlar - Balkanlar, Yaxın Şərq və Cənubi Qafqazda "yumşaq güc" alətindən istifadə öz real nəticələrini verməyə başladı. Türkiyə Balkanlarda "yumşaq güc" siyasətini uğurla davam etdirsə də, Yaxın Şərq və Cənubi Qafqaz kimi regionlarda xarici siyasətində əvvəl tətbiq etdiyi "yumşaq güc" aləti ilə yanaşı, "sərt güc" siyasətini də tətbiq etməyə başladı. Bu regionların sfesifik xüsusiyyətlərini nəzərə almaqla Türkiyə hər birinə qarşı oxşar, eyni zamanda fərqli yanaşma prizmasından çıxış edən siyasət yeritməyə üstünlük verdi.

***Neoosmanizm və neopantürkizmin Türkiyə xarici siyasətində əks olunması***

Neoosmanizm (Yeni Osmanlılıq) və Neopantürkizm (Yeni pantürkçülük) nədir?

Neoosmanizm Türkiyənin Osmanlı imperiyasının dini, mədəni və siyasi mirasını bərpa etməsi ideyasını müdafiə edən bir ideologiyadır. Termin ilk dəfə 1985-ci ildə Devid Beçardın məqaləsində istifadə olunmuşdur. Beçard Türkiyənin gələcək inkişafı üçün "Yeni Osmanlı" seçiminin mümkünlüyünü irəli sürmüşdü. Termin 1974-cü il Kipr münaqişəsindən sonra yunanlar tərəfindən də işlədildi. Bir çox amerikalı, türk analitiklər neoosmanizmin Türkiyədə deyil, ABŞ-ın beyin mərkəzlərində işlənib hazırlandığını və Türkiyə xarici siyasətinə daxil olduğunu bildirirlər. Türkiyənin keçmiş Baş naziri Əhməd Davudoğlunun fikrincə, neoosmanizmin doktrinal əsası və terminin özü ABŞ-da meydana çıxıb. Onun əsasını amerikalı geosiyasətçi Corc Fridmanın bəzi tezisləri təşkil edir [9].

Neoosmanizmi müasir Türkiyə hökümətinin xarici siyasətinin əsas ideologiyası kimi dəyərləndirənlər azlıq təşkil etmir. Ə.Davudoğlu iqtidarı dövründə xarici siyasətin neoosmanizm kimi qiymətləndirilməsinə etirazını bildirib özünün "Teoriden pratiğe. Türk dış politikası üzerinde konuşmalar" kitabında Turqut Özalın xarici siyasətini neoosmanizmə bağlayaraq bu siyasəti diplomatik yenilik kimi şərh etmişdi [3,134]. Doğrudur, T.Özal dövründə xarici siyasətdə neoosmanizm ideyaları nəzərə çarpsa da, bu ideologiya ƏİP iqtidarı dövründə konseptuallaşdırılaraq dövlət siyasəti kimi uğurla yürüdülür.

Perspektivdə Türkiyənin neoosmanizm siyasətinin uğur qazanıb qazanmayacağı geniş müzakirələr obyektidir. Bu uğurun əldə olunmasına iki amilin təsirini qeyd etmək vacibdir: birincisi, Osmanlı imperiyasının bərpa edilməsini nəzərdə tutan neoosmanizm nəzəriyyəsi qonşu dövlətlərin, habelə regionda maraqları olan böyük güclərin maraqlarına ciddi formada toxunur və bunun reallaşdırmasını qeyri-mümkün edir; ikincisi, Türkiyənin bu hədəfə çatması üçün yetəri qədər qaynaqları yoxdur. İndiki geosiyasi reallıqlar prizmasında Türkiyənin neoosmanizm və neopantürkizm ideyalarına əsaslanan xarici siyasət yürütməsinə ciddi əngəllər törədən qüvvələrin təsirini qeyd etmək vacibdir.

Türkiyənin hakim partiyası-ƏİP-yə müxalif olan Fətullah Gülən "Türkiyənin Osmanlı imperiyasının keçmişinə sahiblənməsinin vacib olduğu" fikrini söyləmişdir. Türkiyənin görkəmli alimi İlber Ortaylı isə Türkiyənin müasir xarici siyasətinin neoosmanizm kimi dəyərləndirilməsini normal hesab edərək Türkiyənin imperiya iddialarının reallaşdırılmasını qeyri-mümkün hesab edir [5]. Göründüyü kimi, Türkiyənin neoosmanizmə əsaslanan xarici siyasət kursuna fərqli yanaşmalar mövcuddur. Bu siyasət bir sıra siyasi partiyalar və ictimai birliklər tərəfindən dəstəklənsə də, bəzən tənqid obyekti olur.

Müasir Türkiyə xarici siyasəti bir çox tədqiqatçılar tərəfindən neopantürkizm kimi dəyərləndirilir. Pantürkizm bütün türk xalqlarının müstəqil olub birgə dövlət qurmasını məqsəd görən siyasi düşüncədir. XIX əsrin sonlarında Rusiya imperiyasının türk ziyalıları arasında və türk

xalqlarının mədəni və siyasi birliyini qurmaq məqsədilə ictimai-siyasi hərəkatının üzvlərinin əsərləri və məqalələrində ilk pantürkist ideyalarını görmək mümkündür. Bir ideologiya kimi XIX əsrdə panislamizm və panqərbləşməyə güclü alternativ olaraq formalaşmış pantürkizm haqda ilk elmi-nəzəri fikirlər Yusuf Akçuranın 1904-cü ildə nəşr edilən "Üç Tərzi Siyasət" məqaləsində rast gəlinir. Y.Akçura pantürkizmin ideoloji və elmi cəhətdən mükəmməl olduğunu qeyd edirdi. Azərbaycanlı filosof Əlibəy Hüseynzadənin "Türkləşmək, islamlaşmaq, zamanlaşmaq" əsərində bu ideologiyanın davamlı təzahüri hiss olunurdu. Osmanlı imperiyasının "Gənc türklər" adlandırılan İttihad və Tərəqqi hökumətinin pantürkizm siyasəti nəticəsində Cənubi Qafqaz və Mərkəzi Asiya türklərinə yardımlar edilmişdir. Bakının bolşevik və daşnak işğalından azad olunmasında İttihad və Tərəqqi iqtidarının siyasi və hərbi dəstəyi həlledici olmuşdur. Nuru paşanın başçılığı altında Türkiyə ordusunun 1918-ci ilin yay-payızında keçirdiyi əməliyyatlar nəticəsində nəinki Bakı, habelə Azərbaycanın bir sıra şəhərləri daşnak terror dəstələrindən təmizlənmişdi. Türkiyənin AXC-yə siyasi və hərbi yardımı onun mövcudluğunu qoruyub saxlamağa, ordu və dövlət quruculuğu istiqamətində geniş imkanlar açdı. Müstəqilliyimiz qısa müddətli olsa da, AXC varisliyi Azərbaycan SSR-in yaranması və SSRİ tərkibinə müttəfiq respublika qismində daxil olmasında az rolu oynamadı. Türkiyə soyuq müharibə illərində SSRİ tərkibində olan türk respublikaları ilə heç bir siyasi əlaqələr qurmaq imkanına malik olmamışdır. Belə ki, Türkiyənin yeritdiyi özünütəcrid siyasəti, SSRİ-nin qapalı dövlət olması və sovet ideologiyasının millətçilikdən uzaq olması (SSRİ-də partürkizm ideyaları ciddi tənqid və təqib olunmuşdur) bu istiqamətdə əlaqələrin inkişafına mane olmuşdur.

SSRİ dağıldıqdan sonra pantürkizm ideyaları yenidən müzakirəyə çıxarılsa da, siyasi müstəvidə ciddi dəstək almamışdır. 1990-cı illərin əvvəllərində, türk dövlətləri arasında əlaqələrin genişləndirilməsi istiqamətində ilkin addımlar atıldı. 1992-ci ildən etibarən türkdilli dövlətlərin başçıları arasında görüşlər rəsmi xarakter alaraq get-gedə intensivləşməyə başladı. Bu görüşlər Türkdilli Ölkələrin dövlət Başçılarının Sammiti adlanırdı.1993-cü ildə qərargahı Ankarada yerləşən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) təsis edildi. Təşkilatın məqsədi üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi, beynəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi, eləcə də türkdilli ölkələr arasında mədəni əlaqələrin dərinləşdirilməsi müəyyən edildi. 2008-ci ildə İstanbul sazişi əsasında qərargahı Bakı şəhərində yerləşən Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) yaradıldı və fəaliyyətə başladı. Assambleyanın məqsədi türkdilli ölkələrin parlament strukturları arasında əməkdaşlığın genişləndirilməsi müəyyən edildi. 2009-cu ildə Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım edən beynəlxalq hökumətlərarası təşkilat - Türk Dövlətləri Təşkilatı (keçmiş adı: Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası-Türk Şurası) yaradıldı. Özbəkistan 30 aprel 2018-ci ildə qatılma niyyətinin olduğunu bəyan etmiş və 14 sentyabr 2019-cu ildə də Türk Şurasına üzv olmuşdur. Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Cümhuriyyəti isə TDT-nin müşahidəçi üzvləridir.

Türk xalqlarının dili, ədəbiyyatı, mədəniyyəti və etnoqrafiyasının tədqiqini koordinasiya və təşviq etmək məqsədilə 2010-cu ildə Türk Akademiyası yaradıldı. Akademiyanın digər fəaliyyət məqsədləri türk xalqlarının mədəni və mənəvi irsinin tədqiq edilməsi ilə yanaşı dünya sivilizasiyasının inkişafında payının artırılması, dünya ictimaiyyətinin türk xalqlarının nailiyyətləri haqqında məlumatlandırılmasıdır. Bu sahədə fəaliyyəti dəstəkləmək məqsədilə 2012-ci ildə Türk Mədəniyyəti və İrsi Fondu yaradıldı. Qərargahı Bakı şəhərində yerləşən fond türk dünyası ilə bağlı müxtəlif tədbirlər, layihələr və proqramları maliyyələşdirmək və dəstəkləmək yolu ilə türk mədəniyyətinin və irsinin qorunmasına, tədqiqinə və təbliğinə köməklik göstərir. 2011-ci ildə təsis edilən Türk Biznes Şurası TDƏŞ-ə üzv ölkələrin işgüzar dairələri və digər təşkilatları vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsini həyata keçirir. 2019-cu ildə Türk Ticarət və Sənaye Palatası təsis edildi. TDT-yə üzv ölkələrin işgüzar dairələri, ticarət və sənaye palataları vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsini həyata keçirir.

2022-ci ildə türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində mühüm irəliləyişlər əldə olundu. TDT-nın sayca IX Zirvə görüşü 11 noyabr 2022-ci ildə Səmərqənd şəhərində üzv dövlətlər və müşahidəçi üzvlərin dövlət və hökümət başçılarının iştirakı ilə imzalanan Səmərqənd Bəyannaməsində dövlət başçıları türk xalqlarının ortaq tarixi, dili, mədəniyyəti, ənənələri və dəyərlərinə əsaslanan Türk Dövlətləri Təşkilatının çoxtərəfli əməkdaşlığını daha da genişləndirmək əzmində olduqlarını ifadə edib, eləcə də Azərbaycanın II Qarabağ müharibəsindən sonrakı bərpa, yenidənqurma və reinteqrasiya səylərinə töhfə verməyə hazır olduqlarını da bir daha təsdiqlədilər. Tərəflər TDT çərçivəsində üzv dövlətlərin hökumətləri və dövlət qurumları arasında müntəzəm olaraq təhlükəsizlik məsləhətləşmələrinin davam etdirilməsi barədə razılığa gələrək hərbi-texniki sahədə daha sıx əməkdaşlığa çağırış etdilər. Səmərqənd Bəyannaməsində TDT üzvlərinin dövlət qurumları, qeyri-hökumət təşkilatları, media qurumları, elm adamları, qərar qəbul edən və rəy verən şəxslər arasında əlaqələri və koordinasiyanı gücləndirmək məqsədi ilə ictimai diplomatiya, kommunikasiya və media sahələrində bir-biri ilə əməkdaşlıq etmək tövsiyə olunur, eləcə də beynəlxalq miqyasda dezinformasiya ilə uğurla mübarizə aparmaq və geniş ictimaiyyəti dəqiq məlumatlandırmaq məqsədilə yeni əməkdaşlıq imkanlarının yaradılması nəzərdə tutulur. Zəngəzur dəhlizinin tezliklə açılması, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artırılması, Avropa və Asiya arasında daha səmərəli nəqliyyat bağlantılarının genişləndirilməsi və nəqliyyat əlaqələrinin şaxələndirilməsinə töhfə verən Özbəkistan-Qırğızıstan-Çin və Termiz-Məzari-Şərif-Kabil-Pişəvər dəmir yolu xətlərinin tikintisi üçün səylərin dəstəklənməsi də Şəmərqənd Bəyannaməsində yer aldı [1].

Sənəddə Şamaxı şəhərinin 2023-cü il üçün "Türk dünyasının turizm paytaxtı" elan edilməsi bəyənildi. Şuşanın "2023-cü il Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsini yüksək qiymətləndirən dövlət başçıları 2023-cü ildə TÜRKSOY tərəfindən Şuşada təşkil olunacaq mədəniyyət günlərinə dəstəklərini ifadə etdilər. Daha sonra "Türk Dünyasına Baxış-2040" sənədinin həyata keçirilməsi üçün "2022-2026-cı illər üzrə Türk Dövlətləri Təşkilatı Strategiyası" təsdiqləndi. TDT çərçivəsində Ticarətin asanlaşdırılması strategiyası haqqında və Səmərqənd şəhərinin Türk sivilizasiyası paytaxtı elan olunması haqqında qərarlar qəbul edildi. Türk dövləri arasında gömrük dəhlizlərinin yaradılmasının asanlaşdırılması ilə bağlı saziş imzalandı [1].

İkinci Qarabağ müharibəsində və postmüharibə şəraitində Türkiyənin Cənubi Qafqazda mövqelərini möhkəmləndirmək siyasəti, Zəngəzur dəhlizinin əsas dəstəkləyicisi olması və Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə əlaqələrini, xüsusən iqtisadi və hərbi planda genişləndirmək siyasəti neopantürkizmin təzahürü kimi dəyərləndirilə bilər. Bu siyasət dini xarakterə malik deyil, sırf geosiyasi əhəmiyyət daşıyır.

Türkiyənin Yaxın Şərq regionunda neoosmanizmə əsaslanan siyasəti (əsasən dini amilə üstünlük verilir) Cənubi Qafqazdakı siyasətinə oxşar olsa da, bir sıra fərqli tərəfləri mövcuddur. Türkiyənin Cənubi Qafqazda müttəfiqi Azərbaycan, strateji tərəfdaşı Gürcüstanla münasibətləri tarixi, siyasi və iqtisadi amillərə dayanan bir siyasətdir. Regionun ən problemli ölkəsi olan Ermənistanla ciddi ziddiyyətlər hələ də qalmaqdadır. Türkiyənin neoosmanizm və neopantürkizm siyasətinə ciddi maneələr yaradır. Türkiyənin Ermənistanla sərhədlərini bağlaması, ermənilərin uydurma "soyqırım" iddiaları, habelə Türkiyənin Şərqi Anadolu vilayətlərinə ərazi iddialarından əl çəkməməsi bu iki ölkə arasında münasibətlərdə gərginliyin qorunub saxlanılmasına xidmət edir. 2009-cu ildə Türkiyə-Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində beynəlxalq vasitəçilik təşəbbüsü ilə başlanan danışıqlar nəticəsində imzalanmış Sürix protokolları bir işə yaramadı. Belə ki, 2015-ci ildə Ermənistan Türkiyə tərəfinin siyasi iradəsinin olmadığını bəhanə gətirərək protokollarını geri götürdü və 2018-ci il martın 1-də Ermənistan prezidenti S.Sarkisyan protokolların denonsasiyası haqqında fərman imzaladı. Erməni diasporu əvvəldən protokollara qarşı çıxmış, təsdiq etməmək üçün Ermənistan hökumətinə təzyiq göstərmişdi [2].

Cənubi Qafqazın digər iki ölkəsi ilə münasibətlərini inkişaf etdirən Türkiyənin mövqeyi regionda əvvəlki onilliklə müqayisədə daha da möhkəmlənmişdir. 44 günlük Vətən müharibəsi zamanı və müharibədən sonra Türkiyə-Azərbaycan strateji tərəfdaşlıq münasibətləri keyfiyyətcə

yeni mərhələyə qalxdı. Müharibənin nəticəsi kimi imzalanmış atəşkəs haqqında üçtərəfli 10 noyabr 2020-ci il bəyanatının müddəalarına əsasən yaradılmış, atəşkəsə əməl olumasına nəzarət məqsədilə birgə monitorinq mərkəzində Rusiya sülhməramlıları ilə yanaşı Türkiyə hərbçiləri də fəaliyyətə başladı. Bu Türkiyənin regionda mövqelərini möhkəmləndirmək baxımından az əhəmiyyət kəsb etmir. 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi ilə Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik münasibətləri daha dinamik inkişaf etmək imkanı qazandı. Bu Cənubi Qafqaza "arxa bağçası" kimi baxan Rusiyanın regiondakı maraqları ilə ciddi şəkildə toqquşur. Son dövrdə həm Rusiyanın, həm də Türkiyənin imperiya iddialarının artması fonunda region ölkələri hər iki regional güclə hesablaşmaq məcburiyyətində qalır.

Beləliklə, Türkiyə Yaxın Şərq və Cənubi Qafqaz regionlarında neoosmanizmə, Mərkəzi Asiyaya münasibətdə neopantürkizm ideyalarına əsaslanan siyasət yürüdür. Region ölkələrinin Türkiyə ilə əməkdaşlığını şərtləndirən amillər vacib əhəmiyyət kəsb edir. Burda tarixi əlaqələr, siyasi və iqtisadi münasibətlərin mövcud səviyyəsi, geosiyasi maraqlar, din, dil və mədəni bağlılıq böyük rol oynayır.

### *Neoosmanizmdən Realpolitikə keçid*

Yaxın Şərq öz geosiyasi və geostrateji əhəmiyyətinə görə ən vacib region olub həm regional, həm də qeyri-regional güclərin geniş spektr maraqlarının cəm olunduğu geosiyasi məkandır. Yaxın Şərq siyasəti Türkiyənin xarici siyasətində əsas vektorlardandır. Türkiyə "Ərəb baharı" adlandırılan bir dönəmdə və sonrakı illərdə, xüsusən də Suriyada vətəndaş müharibəsinin regional qeyri-sabitlik mənbəyinə çevrilməsindən sonra Yaxın Şərq bölgəsində dövlət maraqlarını təmin etmək məqsədilə aktiv siyasi-hərbi fəaliyyətini genişləndirdi. Bu dövrdə Türkiyə regiondakı nüfuzunu artırmaq baxımından geosiyasi şəraiti uyğun hesab etsə də, regional və beynəlxalq aktorlarla maraqlarının toqquşması onu bir sıra çətinliklərlə üzləşdirdi. Yaranmış geosiyasi şəraitin regionun demokratikləşdirilməsinə imkan yaradacağını, Türkiyə modeli əsasında demokratiyanın Yaxın Şərqə ixrac olunması baxımdan böyük imkan əldə etdiyini düşünən Türkiyə Liviya, Misir və Suriyadaki siyasi rejimləri tənqid edərək müxalif qüvvələrə dəstək verməyə üstünlük verdi. "Ərəb baharı"nın Yaxın Şərqdə vətəndaş müharibələrinə (İraq, Liviya, Suriya) gətirib çıxarması və bu müharibələrin regionda yaratdığı şərait nəticəsində İŞİD və YPG kimi terrorçu qruplaşmaların fəallaşması, 2015-ci ildən başlayaraq Türkiyənin daha sərt xarici siyasət kursuna keçid etməsini şərtləndirdi. "Realpolitik"ə əsaslanan bu siyasət kursu, ilk növbədə Türkiyənin milli maraqlarının, ərazi bütövlüyünün və dövlət təhlükəsizliyinin təmininə yönəlmişdi. Bu siyasi kurs çərçivəsində Türkiyə təhlükəsizliyini təmin etmək və terrorçu qruplaşmaları məhv etmək məqsədilə Suriyada və şimali İraqda genişmiqyaslı hərbi əməliyyatlar (Şah Fırat, Fırat Qalxanı, İdlib, Zeytun Budağı, Sülh Pınarı və Bahar Qalxanı) həyata keçirdi [6, 501]. Nəticə etibarilə, son illərdə Yaxın Şərq regionunda yaranan yeni geosiyasi reallıqlar və ölkə daxilində baş verən proseslərin Türkiyənin əvvəlki "yumşaq güc" siyasətindən imtina edib "sərt güc"ə keçidini şərtləndirdi.

Bir sıra tədqiqatçılar bu hadisələrin fonunda Türkiyənin artıq neoosmanizm siyasətindən imtina edərək realpolitik siyasəti yürütdüyü fikrini irəli sürürlər. Bəziləri bunu Ə.Davudoğlunun istefası ilə əlaqələndirsələr də, əksəriyyət bunu sadəcə regionda formalaşmış geosiyasi vəziyyətin reallıqlarından irəli gəldiyini vurğuladılar [7]. Realpolitik siyasətinin neoosmanizmi üstələməsini qeyd edərkən Türkiyənin müasir xarici siyasətinin nəzəri əsaslandırılması zəruridir. Bəzi tədqiqatçılar Türkiyənin neoosmanizm siyasətini sosial-konstruktivizm nəzəriyyəsi ilə əlaqələndirərək siyasi realizmi tənqid edirlər. Onların fikrincə, Türkiyənin regionda böyük güc olmasının yeganə yolu neoosmanizm siyasi kursunun tətbiqindən keçir [8]. Buna baxmayaraq, XXI əsrin ikinci onilliyində regionda baş verən hadisələrin gedişatı göstərdi ki, Türkiyənin Yaxın Şərqdə güclənməsi region ölkələri ilə, o cümlədən burda maraqları olan Rusiya və ABŞ-la bir sıra problemlər doğurur.

Türkiyənin müasir dövrdə xarici siyasətinin nəzəri əsaslarını təhlil edərkən qeyd etmək lazımdır ki, bu ölkənin əsas hədəfinin beynəlxalq və regional dövlətlərlə münasibətləri inkişaf

etdirərək maraq dairəsində olduğu regionlarda Türkiyənin nüfuzunu artırmaqdır. Müasir Türkiyə xarici siyasətinin beynəlxalq münasibətlərdə siyasi realizm nəzəriyyəsinə əsaslandığını desək, yanılmarıq. Siyasi realizmin əsas nümayəndələrindən olan Hans Morgentaunun fikrincə, dövlət xarici siyasətində, ilk olaraq öz beynəlxalq təsirini genişləndirməyə cəhd edir. Beynəlxalq siyasət özü elə təsir uğrunda mübarizədir. "*Xarici siyasətin son məqsədləri nə olursa olsun, təsir həmişə yaxın məqsəddir*" deyə o, qeyd edib. H.Morgentau nüfuz uğrunda mübarizəni beynəlxalq mühitin ayrılmaz bir xüsusiyyəti hesab edirdi:

"*Təsir uğrunda mübarizə zaman və məkan baxımından hər şeyi əhatə edir və təcrübə ilə təsdiqlənən danılmaz faktdır*".

H.Morgenthau öz fikrini izah edərək "Millətlər arası siyasət" əsərində (*Politics among Nations: The Struggle for Power and Peace*) yazırdı:

"*Xarici siyasətin xammal mənbələrinə çıxış, dəniz kommunikasiyalarına nəzarət, ərazi dəyişiklikləri kimi maddi məqsədləri nə olursa olsun, onlar həmişə başqalarının şüuruna təsir göstərməklə digərlərinin hərəkətlərinə nəzarət etməyi nəzərdə tutur*"[10].

Belə bir qiymətləndirmə ilə razılaşmaq mümkündür. Təcrübə göstərir ki, dövlətin beynəlxalq nüfuzu nə qədər yüksək olarsa, o, öz maraqlarını bir o qədər asan və daha çox təmin edə bilər. Ona görə də dövlətlər həmişə beynəlxalq münasibətlərdə öz təsir imkanlarını genişləndirməyə çalışıblar və bunun gələcəkdə başqa formada olacağı da görünmür. Türkiyənin son onillikdə yeritdiyi xarici siyasətinin nəzəri əsasında siyasi realizmin prinsipləri durur.

Siyasi realizmə görə, dövlət bir sıra səbəblərdən təsir formasını dəyişə bilər. Öz maraqları baxımından hərbi nəzarəti siyasi, siyasi təsiri isə iqtisadi təsirə dəyişə bilər. Son dövrdə Türkiyənin maraq dairəsində olduğu bölgələrdə yürütdüyü xarici siyasətində bunu da sezmək mümkündür. Belə ki, bir sıra regionlarda gözlənilən nəticə əldə olunmadığından və yeni təhdidlərin yaranması səbəbindən Türkiyə neoosmanizmdən realpolitik siyasətinə keçməyə üstünlük verdi. Son illərdə isə bəzi qlobal əhəmiyyətli məsələlərin həllində vasitəçi kimi fəaliyyəti onun beynəlxalq münasibətlərdəki mövqeyinin güclənməsinə birbaşa təsir edir. Türkiyə Rusiya-Ukrayna müharibəsinin getdiyi bir zamanda münaqişə tərəfləri arasında vasitəçilik təşəbbüsünü ələ alaraq bir sıra uğurlar əldə etmişdir. Misal üçün, Türkiyənin vasitəçiliyi ilə 2022-ci ilin iyul ayında Rusiya və Ukrayna ilə aparılan danışıqlara əsasən, müharibə başlayandan bəri ilk dəfə olaraq çox ehtiyac duyulan Ukrayna ərzaqlarını daşıyan gəmilərin ölkənin Qara dəniz limanlarını maneəsiz tərk etməsi haqda razılıq əldə olundu. Gəmilər Ukrayna limanlarını tərk edərək, milyonlarla ton taxıl və digər ərzaq məhsullarının ixracını həyata keçirdilər. Türkiyənin Rusiya-Ukrayna müharibəsində münaqişə tərəflərinə münasibəti, ABŞ-ın və NATO üzrə müttəfiqlərinin Rusiyaya tətbiq etdiyi sanksiyalara qoşulmaqdan imtina etməsi bir daha göstərdi ki, onun son illərdə izlədiyi siyasət məhz realpolitikdir. Müasir dövrdə Türkiyənin yeritdiyi daxili və xarici siyasət onun üçün həyati əhəmiyyətli bölgələrdə realpolitik siyasətini davam etdirəcəyini deməyə əsas verir. Geosiyasi və milli maraqlarını təmin etmək üçün Türkiyənin yeritdiyi bu siyasət, ya onu regionda əsas güclərdən birinə çevirəcək, ya da maraqlarının ciddi toqquşduğu dövlətlərlə açıq münaqişəyə cəlb edəcəkdir.

***Nəticə***

Müasir Türkiyə Cumhuriyyəti çoxvektorlu xarici siyasət yeridib beynəlxalq və regional proseslərdə aktiv təşəbbüskar oyunçu rolunda çıxış edir. Türkiyədə ƏİP-nin siyasətini çox vaxt islamçılıq və neoosmanizm kimi ideoloji amillərlə əlaqələndirilsə də, əslində Türkiyənin xarici siyasətinin əsas müəyyənedici amilləri daha praktik faktorlardan-Türkiyənin iqtisadi tələbləri, qonşuları ilə tarixi əlaqələri və onun həssas geosiyasi mövqeyindən qaynaqlanır. Coğrafi amili xüsusi vurğulamaq lazımdır. Türkiyənin qlobal əhəmiyyətli coğrafi mövqeyi Balkanlar, Yaxın Şərq, Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələrinə aid enerji və təhlükəsizliklə bağlı bir çox məsələlərdə onun həssas davranışını labüd edir. Belə ki, Türkiyənin öz regionunda fəal rol oynamaqdan başqa çarəsi yoxdur. Bu rolun zəruriliyi əhəmiyyətli dərəcədə Türkiyənin xarici siyasətinə və qonşuları ilə qarşılıqlı əlaqələrinə təsir göstərir.

Bundan əlavə, regional təhlükəsizliyin qorunması Türkiyənin öz iqtisadi rifahı üçün zəruridir. Yeni dünya düzəninin bu tələblərinə uyğun olaraq Türkiyə qonşuları ilə əməkdaşlığı artırmaq və beləliklə, xarici sərmayələri Türkiyəyə cəlb etmək üçün regional təhlükəsizlik və rifahı təşviq etmək səylərini əhəmiyyətli dərəcədə artırmışdır. Osmanlı mperiyasının varisi kimi Türkiyənin mirası, Balkanlar, Yaxın Şərq, Şimali Afrika və Mərkəzi Asiyadakı xalqlarla ortaq tarixi iqtidar partiyası-ƏİP-nin beynəlxalq əlaqələr sahəsində strategiyasını müəyyənləşdirir. Türkiyənin xarici siyasətində Şərqə yönəldiyi iddiasına gəlincə, qeyd olunmalıdır ki, Yaxın Şərq Türkiyə üçün kəskin problemlər mənbəyi olsa da, Türkiyənin xarici siyasətinin yalnız bu bölgə ilə bağlı olduğunu düşünmək səhv olardı. Türkiyənin xarici siyasəti geniş spektr məsələləri, məsələn, Türkiyənin enerji idxalında Rusiya və Gürcüstandan asılılığı kimi məsələləri də əhatə edir. Bütün bu elementlər, o cümlədən kimlik məsələləri, soyuq müharibədən sonrakı yeni dünya nizamının reallıqları, habelə siyasi və iqtisadi tələbatlar Türkiyəni xarici siyasətində aktivlik və ekspansionizmi qoruyub saxlamağa məcbur edir və bundan sonra da realpolitik siyasətinə davam edəcəyi proqnozlaşdırılır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirilib. https://president.az/az/articles/view/57816
2. Ermənistanın baş tutmayan planı - Sürix protokolları niyə ləğv edildi? https://1news.az/az/news/20180302024241917-Ermenistanin-bash-tutmayan-plani-Surix-protokollari-niye-legv-edildi
3. Davutoğlu A. Teoriden pratiğe. Türk dış politikası üzerinde konuşmalar.İstanbul:Küre yayınları, 2013, 440 s.
4. Aktürk Ş. Turkey’s Grand Strategy and the Great Powers, İnsight Turkey Fall 2021/ Volume 23, Number 4, https://www.insightturkey.com/article/turkeys-grand-strategy-and-the-great-powers
5. Ortaylı İ. Yeni Osmanlıcılık.https://www.milliyet.com.tr/yazarlar/ilber-ortayli/yeni-osmanlicilik-1406764
6. Kardaş Ş. Revisionism and Resecuritization of Turkey's Middle East Policy: A Neoclassical Realist Explanation, Journal of Balkan and Near Eastern Studies. 2021, Vol. 23, No. 3, 490–501
7. “From zero problems to real politik: Turkey's foreign policy after Davutoglu. http://www.middleeasteye.net/columns/terms-which-cannot-be-ignored-govern-turkey-s-regional-policy-976887874
8. Turkish Foreign Policy Between Ideology and Realpolitik. https://www.mei.edu/resources/transcript/turkish-foreign-policy-between-ideology-and-realpolitik
9. Тарасов С. У кого на службе находится турецкий неоосманизм и неопантюркизм? https://regnum.ru/news/polit/3209394.html
10. Теория политического реализма как наиболее эффективный инструмент анализа межгосударственных отношений. http://eurasian-defence.ru/?q=node/36071

Daxilolma tarixi: 22.02.2023
Çapa qəbul edilmişdir: 02.06.2023